Nəsimi Şərəfxanlı

# BİR ADAM YOL GEDİR BİZDƏN QABAQDA...

qanun nəşriyyatı

**Nəsimi Şərəfxanlı   Bir adam yol gedir bizdən qabaqda...**
Bakı, "Qanun Nəşriyyatı", 2024, 136 səh.

Ölçü: 120x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 15.05.2024

Baş məsləhətçi və redaktor:   Samir Əsədli
Mətn dizaynı:   Sabina Aydın
Qapaq dizaynı:   Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

AB 022051 / İN 0625

© Qanun Nəşriyyatı, 2024
© Nəsimi Şərəfxanlı, 2024

## REDAKTORDAN

### Qan və söz yaddaşımızın canlı simvolu - Sabir Rüstəmxanlı

*Sabir Rüstəmxanlı haqqında yazmaq bəlkə də çoxları üçün asan ola bilər. Amma onunla bu çoxluğa aid olanların çoxundan daha çox təmasda bulunanlar üçün bu daha çətindir. Çünki Sabir bəy haqda deyilən hər bir söz təkcə ona aid deyil. Sabir Rüstəmxanlı mənim gözümdə böyük bir tarixin, Türk millətinin aydın və sərkərdələr tarixinin bu günümüzə köçürülmüş canlı simvoludur...*

İnsan dünyaya bir dəfə gəlir, ruh isə dəfələrlə. Ruhun mahiyyəti eyni olur, dəyişən bu ruhu daşıyan cismanilikdir. Bu mənada mənim üçün Sabir Rüstəmxanlı Türk millətinin minilliklər boyunca dəyər və qutsal ünvanı olan Dədə Qorqud, Bilgə Xaqan, Yunis Əmrə, Şah İsmayıl Xətai, Məhəmməd Əmin Rəsulzadə yolunun yalnız fiziki yox, həm də ruhi davamçısıdır. Onunla hər dəfə görüşəndə, söhbət eləyəndə gah Qorqud dünyasının nəsihətindən, gah Babək savaşından, gah Göy Türk döneminin paklığından, gah Yunis Əmrə fəlsəfəsindən, gah da Xətainin vətən sevgisindən bir damla hopur qəlbimə. Sabir bəyin qoruduğu bu ruh davamçılığı onun cisminə də hopub və bəzilərinin ucqar saydığı Hamarkəndin bir kasıb

evində dünyaya göz açan bu Türk Kişisi üzü, gözü, səsi ilə belə TÜRK möhürüdür.

Nədənsə mənə elə gəlir ki, neçə-neçə əsrlər, qərinələr geri qayıdıb, qarşımda Sabir Rüstəmxanlını yox, Türkün fikir, söz və savaş tarixi Sabir Rüstəmxanlı ilə yeni bir ömür yaşayır. «Tanrı» sözünü, «Türk», «Yer», «Oğuz» və «Bəy» sözlərini ilk dəfə daşlara köçürülmüş yazılardan oxuyaraq, gündoğandan günbatana qədər olan ərazidə türk millətləri ilə, türk xalqları ilə çörək kəsir, onlarla yol yoldaşı olur Sabir Rüstəmxanlı. Onları - Vətən daşı olanların həmrəyliyinə, Türk xalqlarının birliyinə çağırır və yenidən özü boyda bir ocaq olan Azərbaycana dönür.

Sabir Rüstəmxanlı oba-oba, el-el gəzərək türkləri qan yaddaşını unutmamağa çağırır. Milləti həmrəyliyə, birliyə çağıraraq, Ulu Tanrıdan kömək diləyir. Gözü qarşısında baş verən haqsızlıqları, qəddarlığı, unutqanlığı, yaddaşsızlığı gördükdə bu dərdlərdən qurtulmaq üçün savaş aparır. Dünya boyda sonsuzluğa səpələnmiş və tikə-tikə, parça-parça olmuş Azərbaycan adlı bir kitabın qırıntılarını böyük səbrlə, dözümlə toplayaraq, vərəq-vərəq yapışdırıb, bu millətin «Ömür kitabı»nı yazır - hər əsərində, hər şeirində, hər çıxışında. Tarix dəllalları ilə vuruşa-vuruşa bu millətə öz dədə-babasını, öz kökünü tanıdır, öz keçmiş həqiqətlərini, əsl

tarixini bilməkdə kömək eləyir. Heç bir tarixi sənədə xəyanət eləmədən, həqiqəti olduğu kimi göstərir, yazır, deyir.

Sabir Rüstəmxanlı keçdiyi həyat yolu haqda müsahibələrinin birində deyir: «Azərbaycanın ucqar bir dağ kəndində doğulub, orada boya-başa çatmış bir gəncin Bakıya gələndən sonra hansı çətinliklərlə üzləşdiyini, məncə, hamı bilir. O illər S.Rüstəmxanlının öz dilindən belə ifadə olunur: «Mən heç nə istəmirəm bu məmləkətdən» şeirimdə duyğularımı ifadə etmişdim. O zamankı kəndlərimizin durumu yadınızdadır. Nəinki işıq, qaz, su, hətta televizor, radio da olmurdu. Məktəblərimizin kitabxanalarında kitab da tapılmırdı. Bakıya gələndə isə üz tutacağım ünvan, sığınacaq da yox idi. Həm ali məktəbdə təhsil alır, həm də işləyirdim. Bilmirdim tələbəlik edirəm, yoxsa fəhləlik...»

Ömrün belə bir başlanğıcı və... Və ömrünün ən mübariz çağında artıq Onu bir milyonluq Meydan dinləyir... Qosqoca bir imperiyanın dizinin yerə gəldiyi Meydanın tək sərkərdəsi Odur! Əslində isə bu, yalnız Onun gücü deyildi, bu, minilliklər boyu yol gələn bir ruh davamçılığının gerçək ifadəsi idi - «Titrəyib özünə dönən Türk!»

Sabir Rüstəmxanlı «sovet cəhənnəmində» doğuldu, ancaq mövcud quruluşun zəhərli havasında boğulmadı, onun əsir-yesirinə çevril-

mədi, şirin ana dilində, ata mülkündə özünəməxsus, bənzərsiz söz qalasını kərpic-kərpic, daş-daş hördü. «Ruhumuz sərhədsiz olduğu üçün» deyə-deyə möhtəşəmliyə yüksəldi - gah poeziyada, gah publisistikada, gah da nəsrdə «qızıl qələm» işlətdi, millətinin dərdlərini pıçıldaya-pıçıldaya oxudu, yaralarına məlhəm axtardı, ən yüksək tribunalardan çəkinmədən «mən türk oğlu türkəm, şah nəslindənəm» söylədi. Milli mənsubiyyəti ilə öyünə-öyünə bütün cahanı dolaşdı, əski Turan ellərini gəzdi, öyrədə-öyrədə, yaza-yaza Böyük Əqidə Yolunun həmişəlik yolçusuna çevrildi, ədəbiyyatımıza Sabir Rüstəmxanlı möhürünü vurdu.

Azərbaycan rus imperiyasına qarşı mübarizəyə qalxanda Sabir bəyin yazdığı «Ömür kitabı» milli şüurun oyanmasında və millətin azadlığa gedən yolunun aydınlanmasında əvəzsiz rol oynamışdı. Millətin ömrünə gün kimi doğdu «Ömür kitabı». Onun yazdığı şeirlər, gənclərə millət, vətən və dil sevgisini aşıladı. «Sağ ol, ana dilim» şeiri o dönəmdə dillər əzbəri idi. Sabir Rüstəmxanlı sadəcə yazmadı, yazdıqlarının arxasınca getdi, millətin ağır günlərində onun yanında olmuş, meydanlarda Azərbaycan xalqının haqq davasını müdafiə etdi. O, Azərbaycanın Müstəqillik Aktında imzası olan bir səxsiyyət kimi boy göstərdi.

Sözün qiymətdən düşdüyü bir ortamda Söz Sahibi olan kişilərdən biridir Sabir

Rüstəmxanlı. «Tanımaq istəsən»lə yola çıxdı, «Sevgim-sevincim» dedi, «Gəncə Qapısı»nda «Ölüm zirvəsi»ni gördü, «Xətai Yurdu»nda «Bu, sənin xalqındır», «Sağ ol, ana dilim» söylədi, «Difai Fədaisi» oldu, «Tanrının Elçisi» Oğuz xanla ucaldı, «Ömür kitabı»nda «Əbədi sevda»sına qovuşdu və dünyanın bir çox ölkəsində çap olunan 50-dən yuxarı kitabın yazarı kimi tanındı, sevildi. Cavanlığını meydanlarda millətimizin haqq işi uğrunda mübarizəyə həsr edən Sabir Rüstəmxanlı bu gün artıq ömrün 70-ci ilindədir. Azərbaycanda siyasətlə məşğul olmağın çətinliyini hamı başa düşür. Vətəndaş Həmrəyliyi adlı Partiya təsis edib, onu ayaq üstə saxlamaq, üstəlik, 20 ildən artıq bir müddətdə Milli Məclisin deputatı kimi millətin haqqını tribunadan dilə gətirmək qəhrəmanlıq, cəsarət tələb edir.

O, «Ömür kitabı» ilə yetişdirdiyi bütöv bir nəsli Meydandan İstiqlala apardı. Elə buna görədir ki, bu gün bütün Azərbaycan onu «Bizim Sabir» deyə çağırır. Sabir Rüstəmxanlı ilə M.Ə.Sabirin taleyini birləşdirən çox cəhətlər var. O da Sabir babası kimi millətin taleyinə acıyır, bu yolda mücadilə verir. O, bütün ömrünü belə yaşayıb. X.R.Ulutürk Rüstəmxanlının keçdiyi həyat yolunu «kişi ömrü» adlandırır. Onun yaradıcılığını izləyən hər bir kəs böyük şairimizin bu sözləri ilə razılaşar. Vaxtı ilə

R.Rza da M.Ə.Sabiri «kişi şair» adlandırmışdı. Bu da hər iki Sabir arasında bir tale oxşarlığıdır. Abbas Səhhət vaxtı ilə yazırdı: «Sabir İran inqilabına bir ordu qədər xidmət göstərib». Tam məsuliyyəti ilə demək olar ki, Sabir Rüstəmxanlı da milli birliyimizə bir ordu qədər xidmət göstərmişdir.

Sabir Rüstəmxanlının istər parlaq şifahi nitqində, istərsə də yaradıcılığında tez-tez işlənən bir ifadə mövcuddur: «Qan yaddaşı». Bu iki söz şairin dilində təsadüfən cücərməyib, gerçək həqiqətə söykənir, səbəbi var... Sabir Rüstəmxanlı özü-özlüyündə bütöv bir millətin keçdiyi tarixi yolun qan və söz yaddaşıdır. Böyük bir epoxanın hər anı, Altaylardan Anadoluya, Savalandan Orxon-Yeniseyədək Böyük Turanın hər qarışını ömründə yaşayan bir Ruh sahibidir. Sözüylə, ruhuyla «yurdunun bölünməz xəritəsi»dir. «Bu yurd mənə tanış gəlir» şeirini qələmini ciyərinin qanına batıra-batıra yazıb.

Sabir Rüstəmxanlının öz şəxsində hər bir Azərbaycan türkünün dəqiq həyat amalını kodlaşdırır. «İcazəli cəngavər, qalstuklu qoyunlar mənim ruhumu duymaz!» deyən şair Türk ruhunu anlamaqdan ötrü elmli, savadlı olmağı, gənclik və ya ahıl yaşı da əsas tutmur. Bəs o nədir? Onu haram nütfədən doğulan, haram tikə yeyən, «bir çiçəyin mehrinə sıxılıb ağlamayan» kəslər anlamaz. Göylərə bağlanmayan, sərhəd-